# Yazıçılar Birliyində

## *Adil Cəmil-70*

Bu günlərdə AYB-nin Natəvan klubunda görkəmli şair, tərcüməçi, manasşünas alim, Əməkdar jurnalist Adil Cəmilin 70 illik yubiley tədbiri keçirildi. Tanınmış elm, ədəbiyyat xadimlərinin toplaşdığı tədbirin aparıcısı akademik Nizami Cəfərov Adil Cəmilin həyat və yaradıcılığı barədə dərin məzmunlu çıxışından sonra ilk sözü Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara verdi. Anar müəllim ömrünün əlli ilini ədəbiyyata həsr edən, şəxsiyyətinə və yaradıcılığına hörmət bəslədiyi Adil Cəmil haqqında ürək sözlərini vurğulayıb ona sağlam və uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzuladı.

Xalq şairi Sabir Rüstəmxanlı Adil Cəmili ən gənc vaxtlarından - "Yazıçı" nəşriyyatında bir yerdə çalışdıqları zamandan tanıdığını söyləyib onun bədii, elmi, publisistik və tərcümə kitablarının humanitar düşüncəmizdə dəyərli yeri və mövqeyi barədə danışdı. O, A.Cəmili həm də sözlə davranmağı yaxşı bacaran mükəmməl redaktor kimi səciyyələndirdi.

Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova Adil Cəmilin türk dünyasının mənəvi xəzinəsinə verdiyi töhfələr barədə danışdı.

"Manas" eposunun Azərbaycan dilinə tərcüməsi və tədqiqinin, qırğız atalar sözlərinin, görkəmli qırğız şairi Alıkul Osmonovun poetik toplusunun dilimizə mükəmməl tərcüməsinin məhz Adil Cəmilə məxsus olduğunu vurğulayan A.Raimkulova yubilyarı təbrik edib ona bu məfkurə yolunda sağlam can və uzun ömür arzuladı.

"Aşıq Şəmşir Mədəniyyət Ocağı" İctimai Birliyinin sədri Cavid Qurbanov Adil Cəmil ilə çox gənc yaşlarından ünsiyyətdə, dostluq münasibətində olduğunu vurğulayıb Kəlbəcər ədəbi mühitindən Türk dünyası arenasına çıxan bu təvazökar insanın şairliyindən, alimliyindən saygılarla danışdı. O, A.Cəmil poeziyasının hər şeydən öncə yurddaşlıq, vətəndaşlıq duyğularından, doğma el-obaya, doğulduğu Kəlbəcərin füsunkar təbiətinə vurğunluqdan qaynaqlandığını xatırlatdı və yubilyara bundan sonra da yazıb-yaratmaq üçün sağlamlıq dilədi.

Xalq şairi Vahid Əziz Adil Cəmillə doğmalığın eyni bölgədə doğulmaqdan irəli gəldiyini söyləyib onu ədəbi aləmdə öz imzası olan dəyərli söz sənətkarı və türkoloq alim kimi səciyyələndirdi, yetmiş yaşlı yubilyara əvvəlki həvəslə yazıb-yaratmaq arzuladı.

Akademik Muxtar Kazımoğlu tələbəlik illərindən dostluq münasibətləri olan Adil Cəmilin poetik yaradıcılığından konkret nümunələri təhlilə cəlb etməklə onun mövzu dairəsinin genişliyini, yeni fikir, təzə söz axtarışındakı uğurlarını dilə gətirdi və şair dostuna möhkəm cansağlığı, təzə uğurlar dilədi.

Ədəbiyyatşünas professorlar - şair haqqında "Adil Cəmilin sənət yolu" kitabını yazmış Vaqif Yusifli, Nizami Tağısoy həmçinin Əsəd Cahangir elmi təhlilləri ilə yubilyarın ədəbiyyata və hümanitar elmimizə məxsusi xidmətlərini yüksək dəyərləndirib onu düzənlənən tədbir münasibətilə təbrik etdilər.

Adil Cəmilin nəsildaşları - görkəmli şair Vaqif Bəhmənli və Ağacəfər Həsənli də qələm dostlarının ədəbiyyatda və həyatda özünəməxsusluğu ilə seçilən, yazdıqlarının səmimiyyəti ilə sevilən bir şəxsiyyət olduğunu vurğulayıb yubilyara sağlam və uzun ömür arzuladılar.

Tədbirdə f.ü.fəlsəfə doktoru İlham Məmmədli, yazıçı Yasif Nəsirli, şairlər - Mirsəyyaf Zamanlı, Tahir Taisoğlu, Fəxrəddin Ziya, Nəsib Nəbioğlu, publisistlər - Tahir Aydınoğlu, Əlövsət Ağalarov, pedaqoq Həqiqət Şükürova çıxış edərək Adil Cəmilin yaradıcılığı və şəxsiyyəti barədə səmimi düşüncələrini auditoriyanın diqqətinə yetirdilər.

Sonra söz yubilyara verildi. Adil Cəmil tədbirin düzənlənməsində öncə AYB-nin sədri, Xalq yazıçısı Anara, həmçinin, bütün iştirakçılara hörmət və ehtiramını bildirdi. Beləcə, Əməkdar mədəniyyət işçisi Aşıq Ədalət Dəlidağlının qara sazının "tufanından" sıyrılan Adil Cəmil qoşmalarının şirinliyi ilə məclisə yekun vuruldu.

**P.S.** *Xatırladırıq ki, tədbirin gedişində Adil Cəmil AYB-nin, Türk Mədəniyyəti və İrsi Fondunun, Mətbuat Şurasının diplomları ilə təltif olundu.*

***SƏRVAZ***







